# Zəfər paradı – şərəf paradı

***Bakının Azadlıq meydanında keçirilmiş tarixi Zəfər paradından bir il ötür. Həmin gün paytaxtımızın baş meydanı öz adına layiq böyük bir təntənə yaşadı. Ümidin, inamın, əzmin, qətiyyətin paradı idi Zəfər bayramı! Sarsılmaz dövlət-ordu-xalq birliyinin təcəssümü idi! Şərəf paradı idi Zəfər paradı!***

Paradda 3 min nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi arsenalın, o cümlədən, silahlanmaya yeni qəbul edilmiş müasir döyüş texnikasının, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, hərbi gəmi və katerlərin nümayişi ilə yanaşı, Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən salamat ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş etdirildi. İşğalçı Ermənistan və ona havadarlıq edən dövlətlər Azərbaycan Ordusunun gücünün, qüdrətinin şahidi oldular.

**(ardı 3-cü səhifədə)**



*Bütün gücümüzü səfərbər edərək bir “dəmir yumruq” yaradıb düşmənin başını əzdik. Müharibə dövründə mən deyirdim ki, bizim “dəmir yumruğumuz” həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu “dəmir yumruq” düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər ordusu öz tarixi missiyasını yerinə yetirdi.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***



# Zəfər paradı – şərəf paradı



*(əvvəli 1-ci səhifədə)*

Xatırlamaq necə də xoşdur ki, Azərbaycan Prezidenti İlham Əliyevlə yanaşı, qardaş Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan da tədbirdə böyük məmnuniyyətlə iştirak edirdi. 2018-ci ildə, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə keçirilən parada da qardaş ölkənin lideri qatılmışdı. Bir daha əmin olduq ki, Azərbaycanla Türkiyənin qardaşlığı sarsılmazdır. 2020-ci ilin 10 dekabr – Bakı qələbəliyi müharibədə canını qurban vermiş şəhidlərimizin sayı qədər mehmetciyin iştirakı ilə daha da möhtəşəm oldu.

Parada Müdafiə Nazirliyinin yüksək vəzifəli generalı, “Zəfər” ordenli Kərim Vəliyev komandanlıq edirdi. Şuşa azad olunduqdan sonra Azərbaycan hərbçiləri tərəfindən bu şəhərin üzərində qaldırılan zəfər bayrağı parada gətirilmişdi. Bakı sakinləri təntənələri yaxından izləyir, anbaan yaddaşlarına yazmaq istəyirdilər. Əvvəlki günlərdə də Qələbə paradının məşq prosesində Türkiyə hərbçilərinin küçələr boyunca nizami sırada addımlaması və döyüş marşlarının, hünər şərqilərinin oxunması qeyri-adi bir mənzərə yaratmış, hər kəsin qəlbini tükənməz qürur hissi ilə döyündürmüşdü. Dövlət televiziyası ilə yayımlanan və dünyanın bütün guşələrindən seyr edilən parada "Azərbaycan fanfarası" kompozisiyası ilə başlandı. Təntənəli yürüş Müdafiə Nazirliyinin Hərbi Orkestri ilə müşayiət olunurdu.

Müdafiə naziri Zakir Həsənovun Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyevə və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana raport verməsi, dövlət başçılarının əsgərləri salamlaması, hərbi orkestrin Azərbaycanın və Türkiyənin dövlət himnlərini ifa etməsi tədbirin ən həyəcanlı anları idi.

Prezident İlham Əliyev Zəfər paradındakı parlaq çıxışında Vətən müharibəsi ilə bağlı bir sıra mühüm məsələlərə toxundu. İndiki Ermənistanda yaşayan yüzminlərlə azərbaycanlının ata-baba yurdlarından qovulduğunu dedi və Zəngəzur, Göyçə və İrəvanın Azərbaycanın tarixi torpaqları olduğunu bildirdi. Prezident Vətən müharibəsi başlanmazdan üç gün əvvəl BMT Baş Assambleyasında Ermənistanın yeni bir müharibəyə hazırlaşması, 2020-ci ilin iyul, avqust və sentyabr aylarında erməni ordusunun Azərbaycana qarşı üç hücum etməsi və bunun qarşısının alınması ilə bağlı çıxış etdiyini söylədi. Sentyabrın 27-də isə düşmənin növbəti hərbi təxribatına cavab olaraq Azərbaycan əsgərlərinə əks-hücum əmri verdiyini bildirdi. Dövlətimizin başçısı ardınca Şuşa döyüşünü xatırladı və bunu “tarixi hadisə” adlandırdı. Sonda cənab İlham Əliyev Azərbaycan Ordusunun Ermənistanı məğlub, düşmən ordusunu darmadağın etdiyini söylədi və "Erməni faşizmi yenidən ayağa qalxarsa, nəticə eyni olacaq" – dedi. Prezident çıxışını "Qarabağ Azərbaycandır və nida" sözləri ilə bitirdi.

Müharibə günlərində ordumuzun zəfər yürüşündən fərəh hissi keçirən, “Azərbaycandan xoş xəbərlər aldıqca çox qürurlanırıq, sevinirik”, – deyən cənab Rəcəb Tayyib Ərdoğan bu səfəri ilə Azərbaycanın yanında olduğunu, sevincimizi bölüşdüyünü bütün dünyaya bir daha nümayiş etdirdi. Böyük inam və xətircəmlik aşılayan çıxışının əvvəlində şəhidlərə Allahdan rəhmət dilədi, iki qardaş ölkənin münasibətlərindən danışdı. "Qarabağa qətliam və göz yaşından başqa heç bir şey gətirməyənlər ağıllarını başlarına yığmalıdırlar" – dedi və erməni siyasətçilərin sülhə, sabitliyə doğru cəsarətli addımlar atmalı olduğunu da əlavə etdi. Ərdoğan daha sonra Əhməd Cavadın, Nuru Paşanın və Mübariz İbrahimovun ruhlarının şad olduğunu söyləyərək, Əhməd Cavadın "Arazı ayırdılar…" şeirindən parçalar oxudu və mübarizənin davam edəcəyini vurğuladı.

Möhtəşəm Zəfər paradında hərbi heyət və texnikanın hərəkəti Nobel prospektindən başlayaraq Ağ şəhər bulvarı, Dəniz vağzalı, Dənizkənarı bulvar (indiki 8 Noyabr) boyunca, Azadlıq Meydanı, Neftçilər prospekti, Azneft meydanı ilə Bayıl qəsəbəsi və Bibiheybət məscidi istiqamətini əhatə elədi. Günəş səmadan təbəssüm çiləyir, qalib xalqın üzü gülürdü. İşıq dirəkləri də, ağaclar və güllər də bayram libasına bürünmüşdü.



Azərbaycan xalqı bu günü 30 ilə yaxın gözləmişdi. Eyni zamanda, ötən müddətdə milli ordu gücləndirilmişdi. Bu yöndə atılan addımlar, nəhayət, qarşıya qoyulan məqsədi – qələbəmizi gerçəkləşdirdi. Rəşadətli ordumuzun hünəri ardıcıl bir proses idi. Bu, tut yarpağının bəslənib atlas olması, həmin atlasın, ipəyin, qumaşın bayrağa çevrilməsi və bayrağın da azad edilən ərazilərdə ən uca nöqtələrə sancılması deməkdir. Dövlət başçımızın vurğuladığı kimi, 44 gün davam edən müharibədə ordumuz möhtəşəm qələbə qazanaraq, dünya hərb tarixinə yeni şanlı səhifələr yazdı. Bu, həm də son iki əsrdə bir ilk idi ki, Azərbaycan döyüşərək, torpaqlarını almış, haqqın qələbəsini təmin etmişdi. Müharibə zamanı qələmini süngüyə çevirən şair dostum Rafiq Yusifoğlu özünün yazdığı “Zəfər dastanı”nda bunu gözəl ifadə edib:

İgidlər son qoydular illərin ah-ufuna,
Salam olsun qəhrəman şəhidlərin ruhuna!



Beləliklə, dekabrın 10-da keçirilən Zəfər paradı qələbə sevincimizin zirvə təntənəsinə çevrildi, çağdaş tariximizin şöhrət tacı oldu. Hər kəs şəhidlərin ölməz xatirəsinə sayğı duruşuna qoşuldu. Azərbaycan Prezidenti İlham Əliyevin dönməz iradəsi, müasir silah və sursatla təmin edilmiş qalib ordunun qəhrəmanlığı, xalqın monolit birliyi bizə belə bir tarixi qələbə sevincini bəxş edən əsas amil idi.

Hədsiz minnətdarlıq hissi ilə xatırlayırıq ki, 103 il bundan əvvəl, 1918-ci il sentyabrın 15-də Nuru paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan korpusu Bakıya daxil olaraq şəhəri erməni-bolşevik işğalından azad edib. Bu gün Türkiyə yenə də yanımızdadır. Bu, ümumtürk birliyinə doğru növbəti inamlı addımdır. Azərbaycan bu baxımdan mühüm geopoliktik körpüdürsə, Türkiyə Turan dünyasını bir qatara düzüb irəli aparan lokomotivdir. 10 noyabr tarixli üçtərəfli Bəyanatın bir maddəsi Naxçıvanımızla Qərb rayonlarımızı birləşdirəcək nəqliyyat infrastrukturunun inşasını nəzərdə tutur. Son vaxtlar Zəngəzur dəhlizinin açılması naminə reallaşan tədbirlərin daha sıx birliyimizə vəsilə olacağına şübhə yoxdur.



Bildiyimiz kimi, sentyabrın 27-dən noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd düşməndən təmizlənib, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz zirvələri, habelə daha 5 adsız yüksəklik azad olunub. Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilməyəcəyini, iflasa məhkum olduğunu anlayan düşmən məğlubiyyətini etiraf etmək məcburiyyətində qalıb. Sonra isə bir güllə atılmadan, bir şəhid verilmədən Ağdam, Kəlbəcər və Laçın azad edilib və dünyanın gözündə biz qalib xalq, məğlubedilməz dövlət kimi özümüzü təsdiqləmişik.

Bir məqamı da xatırladaq ki, Bakıdakı Zəfər paradı ilə eyni vaxtda İrəvanda müharibə zamanı məhv edilmiş erməni hərbçilərinin ailələrinin etiraz aksiyaları keçirilirdi. Bunun özü də müəyyən rəmzi xarakter daşıyır və Ermənistanın əbədi məğlubiyyətinə bir işarədir. Ölkə hökumətinin istefasının tələb olunduğu mitinqlər İrəvanda bu gün də davam edir.

Zəfər paradını reallaşdırmaqla – tarixi qələbəmizin zirvə nöqtəsinə çatmaqla biz həm də yeni tərəqqi dövrünə qədəm qoyduğumuzu bir daha sübut etdik. Türkiyə ilə birlik və qardaşlığımızın siyasi təsdiqi olan, özü də 15 iyun – Qurtuluş Günündə, Qarabağın uca dağlarının qoynunda imzalanmış Şuşa Bəyannaməsinin imzalanması dünyaya bir daha qətiyyətimizi, daha böyük qələbələrə israrlı olduğumuzu göstərdi. Prezident İlham Əliyev bunu böyük inamla diqqətə çatdırdı: “Birgə Bəyannamədə tarixi Qars müqaviləsinə istinad edilir. Tarixi Qars müqaviləsi düz 100 il bundan əvvəl imzalanmışdır. Bu da böyük rəmzi məna daşıyır. Azad edilmiş Şuşa şəhərində 100 ildən sonra müttəfiqlik haqqında imzalanan Birgə Bəyannamə bizim gələcək iş birliyimizin istiqamətini göstərir”.

Bu tarixi hadisə – möhtəşəm qələbə münasibətilə düzənlənən Zəfər paradı Prezident İlham Əliyevin illərlə apardığı xarici və daxili siyasətin, ordu quruculuğu sahəsində fədakar fəaliyyətin, beynəlxalq aləmdə həyata keçirdiyi uğurlu diplomatiyanın məntiqi nəticəsidir. Bir ay öncə tarixi Zəfər Gününün Şuşada təntənə ilə qeyd olunması, orada musiqili atəşfəşanlıq keçirilməsi bir qədər aşağıda – Xankəndidə qalan erməni törtöküntülərinin qəlbinə əməlli-başlı dağ basdı. Cıdır düzündən ətrafa işıq saçan atəşfəşanlığı Üzeyir Hacıbəylinin “Koroğlu” operasının uvertürası, “Cəngi”, “Qarabağ şikəstəsi”, Fikrət Əmirovun “Azərbaycan kapriççiosu” və digər əsərlər müşayiət edirdi. Bakıda isə Azneft dairəsindən “Ağ şəhər” bulvarınadək möhtəşəm zəfər yürüşü oldu. Hərbi orkestrin ifasında vətənpərvərlik və qələbə ruhlu mahnılar, marşlar səsləndirildi. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantları 440 metr uzunluğunda Azərbaycan Bayrağını yürüş marşrutu üzrə daşıdılar. Yürüşü süvari dəstə müşayiət edirdi. Təşkil olunan flaşmobda könüllü gənclərin iştirakı ilə Vətən müharibəsinin rəmzi olan “Dəmir yumruq” kompozisiyası nümayiş etdirildi. Aksiya dəniz kənarındakı Hərbi Qənimətlər Parkında yekunlaşdı. Axşam isə korifey bəstəkarların musiqilərinin müşayiəti ilə möhtəşəm atəşfəşanlıq keçirildi.

Qeyd edək ki, Bakıdakı tarixi Zəfər paradı XXI əsrin türk əsri olacağının daha bir müjdə təntənəsidir. Bir müddət öncə cənab İlham Əliyev İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə görüşündə Türk Dünyasının Ali Ordeni ilə təltif edilib, həmçinin həmin qurum Türk Dövlətləri Təşkilatına çevrilib. Tədbirdə vurğulandığı kimi, “yeni addım və mövqeyimiz olan Türk Dövlətləri Təşkilatı ilə bundan sonra daha sürətli, məxsusi bir israrla kök salacaq, böyüyəcək, inkişaf edəcək və səpələnəcəyik”.

Dostlarımızın sevindiyi, düşmənlərimizin isə xar olduğu belə zəfər təntənələrimiz, inşallah, hələ çox olacaq.

***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”***